# Dini Liderlərin Qlobal Bakı Sammitinin iştirakçıları Fəxri xiyabanı ziyarət ediblər

**Dini Liderlərin Qlobal Bakı Sammitinin iştirakçıları noyabrın 4-də Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üstünə gül dəstələri düzülüb.

Qeyd edək ki, noyabrın 5-6-da keçiriləcək Dini Liderlərin Qlobal Bakı Sammitində 55 ölkəni və 30 beynəlxalq təşkilatı təmsil edən dövlət, elm və din xadimləri iştirak edəcəklər.

Azərbaycan.- 2024.- 5 noyabr (№ 244).- S.3.